

# Azərbaycan erməni qüvvələrini məngənəyə salır




**ABŞ dövlət katibinin keçmiş xüsusi müşaviri, postsovet məkanı üzrə ekspert Pol Qobl Rusiya mediasına açıqlamasında Azərbaycanın sərhədyanı bölgələrinə, o cümlədən, cəbhə və sərhəd xəttindən uzaq olan şəhər və bölgələrə edilən hücumların Ermənistan üçün son dərəcə təhlükəli olduğunu vurğulayaraq deyib:**

"İrəvan başa düşməlidir ki, bundan sonra Azərbaycan ikiqat güclə erməni qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmasına çalışacaq. Fikrimcə, Ermənistan Moskvanı münaqişəyə müdaxilə etməyə və İrəvana dəstək verməyə məcbur etmək üçün Azərbaycanı cavab tədbirlərinə vadar etməkdən ötrü belə addımlar atır. İrəvan mövqelərinin zəiflədiyini görür və özünümüdafiə məqsədi ilə hər şeyə əl atmağa hazır olaraq "vo-bank" gedir".

Pol Oobl daha sonra bildirib ki, hazırda münaqişə tərəfləri pilotsuz təyyarələr də daxil olmaqla daha müasir silahlara sahibdirlər: "Azərbaycan ordusu çox yaxşı hazırlaşıb və hər zaman hədəflərinə sponsorlar olmadan təkbaşına çatmağa hazırlığını hesablayıb. Ermənistan isə hesab edir ki, Moskva Bakının çox aqressiv hərəkət etməsinə icazə verməyəcək. Taktiki hərəkətlərə gəlincə, Azərbaycan indi Qarabağdakı erməni qüvvələrini məngənəyə sıxışdırır, eyni zamanda şimala və cənuba doğru irəliləyir. Və bu, münaqişədə yeni bir dönüşdür".

Pol Qobl Azərbaycanın uğurlarını yalnız pilotsuz təyyarələrin istifadəsi ilə əlaqələndirmək fikri ilə razılaşmayıb:

"Əlbəttə ki, pilotsuz təyyarələr Azərbaycana kömək etdi. Ancaq ölkənin müharibədəki uğurunu yalnız bunlar təmin etmir. Əsas səbəblər Azərbaycan Ordusunun digər silah növlərində, eləcə də zabit və əsgərlərin yüksək döyüş hazırlığı və mübarizə əzmindədir. Artıq Azərbaycan Cənubi Qafqazdakı qüvvələr nisbətini dəyişdirməyin mümkün olduğunu hiss edir və bu şansı itirmək niyyətində deyil".

**Hazırladı:**
**T.AYDINOĞLU,**
**"Xalq qəzeti"**

Xalq qəzeti 2020.- 28 oktyabr.- S.5.